Federal Xarici Işlər Nazirliyi

CIVIL SOCIETY COOPERATION

## *Şərq Tərəfdaşlığı ölkələri və Rusiyada vətəndaş cəmiyyəti ilə əməkdaşlığın genişləndirilməsi*

Şərq Tərəfdaşlığı ölkələri və Rusiyada vətəndaş cəmiyyəti ilə əməkdaşlığın genişləndirilməsinə dair proqram (ŞTR-proqramı) vətəndaş cəmiyyətinə onun mühüm aktyor və dövlət fəaliyyəti üzrə tərəfdaş kimi rolunun mənimsəməsinə və ölkələrdə davam edən keçid proseslərinin dəstəklənməsinə imkan verir.

Federal Hökumət, qonşu ölkələrdə və bununla da Avropa İttifaqı və Almaniyada azadlıq, təhlükəsizlik və rifahı təşviq etmək üçün Şərq Tərəfdaşlığı (ŞTR) proqramı çərçivəsində **bir tərəfdən Almaniyanın demokratik, qeyri-dövlət aktyorları, digər tərəfdən isə Şərq Tərəfdaşlığı ölkələri ( Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna) habelə Rusiyadan olan aktyorlar arasında davamlı vətəndaş cəmiyyəti əməkdaşlıq strukturlarının yaradılması və genişləndirilməsi üçün tədbirləri dəstəkləyir.**

**Proqram uzunmüddətli tərəfdaşlıqların qurulması, bərabər səviyyədə əməkdaşlıq və Almaniyadakı layihə tərəfdaşları ilə proqramların icra olunduğu ölkələr arasında vəzifələrin ədalətli bölüşdürülməsi ilə seçilir.** Proqram mədəniyyət və təhsil siyasəti yönümlü layihələrin bütün sahələrini əhatə edir.

Rusiyanın Ukraynaya qarşı beynəlxalq hüququ pozan təcavüzkar müharibəsinin beşinci ilində və regionun böyük bir hissəsində vətəndaş cəmiyyəti iştirakçıları və strukturları üçün getdikcə daha çox daralan məkan nəzərə alınmaqla, onları dəstəkləmək daha da vacibdir.

### *1. Plüralizmi və dayanıqlılığı gücləndirmək - fikir və media müxtəlifliyini dəstəkləmək və xarici məlumatların manipulyasiyası və müdaxiləsi ilə mübarizə aparmaq*

Plüralizm anlayışı muasir demokratiyaların qurucu elementidir, onların legitimliyi isə hər şeydən əvvəl cəmiyyətdəki rəy, maraq və dəyərlərin müxtəlifliyinə dair tolerantlığa söykənir.

ŞTR proqramı çərçivəsində informasiya, fikir və media müxtəlifliyini gücləndirən, xarici məlumatların manipulyasiyası və müdaxiləsi ilə mübarizə aparan (FİMİ) və müvafiq ölkələrdə bu cür müdaxilələrə qarşı dayanıqlığı artıran layihələri dəstəkləyir. Bu layihələr media mütəxəssislərinin gücləndirilməsi və ixtisaslarının artırılması, habelə yüksək keyfiyyətli və plüralist (yerli) media resurslarına çıxışın yaxşılaşdırılması vasitəsilə cəmiyyətlərin etibarsız və yalan məlumatlara qarşı dayanıqlığının artırılmasına töhfə verməlidir. Bu məqsədlə rəqəmsal müdafiə texnologiyalarının hazırlanması və istifadəsi üzrə tədbirlər də maliyyələşdirilə bilər.

**2. Qarşılıqlı anlaşmanı dərinləşdirmək üçün dəyərlərə dair dialoqun və insan hüquqlarının təşviqi**

Bu məqsəd altında ilk növbədə mübadilə və mədəniyyət lahiyələri dəstəklənə bilər. Hazırda mövcud imkanlar çərçivəsində insan hüquqlarının qorunması, idarəetmədə qanunauyğunluq, məhkəmələrin müstəqilliyi, fərdin yaşama və azad inkişaf etmə hüququ və çoxluğun qərar qəbul etmə prinsipi kimi fundamental dəyərlərə dair fikir mübadiləsi aparmaq məqsədilə görüşlərin təşkili dəstəklənir. Həmçinin, bu dəyərlərin birgə müdafiəsi ŞTR-bölgəsində qarşılıqlı anlaşmanı və Almaniyada bu ölkələr haqqında məlumatın olmasını dəstəklənir. Burada vətəndaş cəmiyyəti mübadiləsi və siyasi mədəni tədbirlər vasitəsi ilə yuxarıda qeyd edilən əsas dəyərləri aşılayan və gücləndirən habelə tərəfdaş ölkələrdə vətəndaş cəmiyyəti şəbəkələrinin qurulmasına töhfə verən layihələrin dəstəklənilməsi nəzərdə tutulur.

**3. Demokratiyaları gücləndirmək, korrupsiyaya qarşı mübarizə aparmaq, Aİ-yə inteqrasiyanın dəstəklənməsi məqsədilə gələcək perspektivlərin yaradılması və demokratik transformasiyanın dəstəklənməsi.**

Bu məqsəd altında hamı üçün təhlükəsiz ictimai gələcək perspektivləri yaratmaq məqsədilə demokratik səyləri gücləndirən təşəbbüslər irəli sürülə bilər. Xüsusilə, Ukraynada bizim prioritetimiz transformasiya proseslərinə, eləcə də Rusiyanın işğalçılıq müharibəsi nəticəsində dağılmış vətəndaş cəmiyyəti strukturlarının qorunub saxlanmasına və bərpasına dəstək verməkdir. Bundan əlavə, biz xüsusilə Ukrayna və Moldova Respublikasının Aİ-yə üzvlük prosesini, Gürcüstanın Aİ perspektivini, həmçinin Ermənistanın Aİ-yə inteqrasiyasını təşviq edən layihələri dəstəkləyirik. Rusiya və Belarusda isə dəstəyimizi getdikcə artan repressiyalara və zərurət olduqda mühacirətdəki fəaliyyətlərinə baxmayaraq, ölkə daxilində təsir göstərməkdə davam edə bilən və məsələn, fundamental hüquqların müdafiəsi uğrunda mübarizə aparan vətəndaş cəmiyyəti seqmentlərinə yönəldirik. Daha çox ictimai fəallığa həvəsləndirən, həmçinin xüsusilə marginallaşmış qrupların siyasi və ictimai iştirakçılığını təmin edən akademik, peşəkar və ictimai-siyasi təhsil və ixtisasartırma tədbirləri də maliyyələşdirilə bilər. Bura həmçinin müharibə, təqib, repressiya və ya xüsusilə ağır sosial mühit səbəbindən artan təzyiqlərə məruz qalan vətəndaş cəmiyyəti fəallarına və tərəfdaş layihələrə dəstək tədbirləri də daxildir.

**4. *Dialoqun və yaxınlaşmanın dəstəklənməsi - gələcəkdə regional münaqişələrin aradan qaldırılması üçün etimadın möhkəmləndirilməsi tədbirləri.***

Həll olunmamış regional münaqişələrdə böhranların qarşısını almaq və ya aradan qaldırmaq üçün mədəniyyət və təhsil sektorlarının alətlərindən istifadə edən və beləliklə, gələcək anlaşma üçün istiqaməti təyin edən tədbirlər maliyyələşdirilə bilər. Bu maliyyələşdirmə hədəfi xüsusilə Cənubi Qafqaz ölkələrinə (Azərbaycan, Ermənistan, Gürcüstan) və Moldova Respublikasına yönəlib. Sahilyanı ölkələrin transsərhəd **Qara dəniz əməkdaşlığının** regional perspektivini diqqət mərkəzinə gətirən və beləliklə, Aİ-nin Qara dəniz strategiyası ilə sinerji yaradan layihə təklifləri təqdir olunur.

Rusiya işğalçı müharibəsi zamanı öz mövqeylərinə görə təhdidlərə və repressiyalara məruz qaldıqlarını gördüklərinə görə Ukrayna, Rusiya və Belarusdan olan insanlar öz evlərini tərk edərək Şərq Tərəfdaşlığının digər üzv ölkələrində məskunlaşdılar. Bu insanların dialoqunu və ictimai iştirakçılığını təşviq edən, onların yeni vətənlərindəki vətəndaş cəmiyyəti ilə şəbəkələşməsini (əlaqələrini) gücləndirən və beləliklə, dayanıqlı, inklüziv və demokratik cəmiyyətlərin qurulmasına töhfə verən layihələr də maliyyələşdirilə bilər

**2027-ci maliyyə ilində ölkələr üzrə xüsusi prioritet istiqamətlər mövcuddur:**

- **Azərbaycan/Ermənistan:** İctimai və vətəndaş cəmiyyəti səviyyəsində barışıq prosesinin transsərhəd təşviqinə dair layihə təklifləri.
- **Ermənistan:** Ermənistanın Avropa İttifaqına inteqrasiyasına növbəti dəstəyin verilməsinə dair layihə təklifləri.
- **Belarus**: Mühacirətdə fəaliyyət göstərən müstəqil mediaya, eləcə də Belarus dili və mədəniyyətinin muxtariyyətinə dəstək.
- **Gürcüstan:** Plüralist və dayanıqlı vətəndaş cəmiyyəti və media mühitini dəstəkləmək və dezinformasiya ilə mübarizə aparmaq üçün layihə təklifləri.
- **Ukrayna:** 2027/2028-ci illər Almaniya-Ukrayna Mədəniyyət Mövsümünün məqsədlərinə töhfə verən layihə təklifləri.

**Rəsmi tələblər (əlavə məlumatları FAQ-dan əldə edə bilərsiniz):**

Vətəndaş cəmiyyəti əməkdaşlığı ilə bağlı layihələr **Almaniya, Azərbaycan**, **Belarus**, **Ermənistan**, **Gürcüstan**, **Moldova Respublikası**, **Ukrayna** və ya **Rusiyada** həyata keçirilərsə və ən az iki təşkilatın iştirakı nəzərdə tutularsa (onlardan biri Almaniyadan və biri hədəf ölkələrdən ən azı birindən), maliyyələşdirilə bilər. "Veymar Üçbucağı" əməkdaşlığı çərçivəsində **Fransa** və/və ya **Polşadan** olan tərəfdaş təşkilatların əlavə iştirakı mümkündür və qətiyyətlə alqışlanır. Müvəqqəti mühacirətdə olan tərəfdaş təşkilatlarla layihələr də maliyyələşdirilə bilər.

Maliyyə yardımı **yalnız vətəndaş cəmiyyəti layihələrinə və strukturlarına** ayrılır; dövlət və ya iqtisadi aktyorlar maliyyələşdirilmir.

Ayrılan maliyyə vəsaiti layihə təyinatlıdır və illik büdcə prinsipindən asılıdır. Layihələr prinsip etibarı ilə 2027-ci il ərzində, başqa sözlə 31.12.2027-ci il tarixinə qədər başa çatmalıdırlar. Bununla belə, Federal Xarici İşlər Nazirliyi ətraflı və tutarlı əsaslandırma olduqda çoxillik layihələri (maksimum üç il) alqışlayır.

Maliyyə vəsaitinin minimal məbləği 50.000 avrodur. Layihə ilə əlaqəli təhlükəsizlik tədbirlərinə xərclənən vəsait ümumiyyətlə maliyyələşdirilə bilər. Layihə eskizləri (alman və ya ingilis dilində) 07 avqust-15 sentyabr 2026-cı il tarixədək yalnız

**http://oepr.diplo.de**

ünvanlı internet səhifəsi vasitəsi ilə təqdim edilə bilər. Bu internet səhifəsindən Siz layihə eskizlərinin təqdim edilməsi prosesinə dair əlavə məlumat və təlimatları əldə edə bilərsiniz. Təqdim edilmiş layihə ideyalarına sonradan düzəlişlər edilməsinə və vaxtından gec müraciətlərə icazə verilmir.

Maliyyə vəsaitini alanlar müvafiq qaydada xərcləmə və layihə hesabatlarını təqdim etmək öhdəliyi daşıyırlar.  Bu sənədlər ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini, eləcə də layihələrin və bütövlükdə maliyyələşdirmə proqramının uğurunu yoxlamaq üçün Xarici İşlər üzrə Federal İdarə və Federal Xarici İşlər Nazirliyi tərəfindən istifadə olunur. Daha ətraflı məlumatı yükləmələr bölməsindəki Ümumi və Xüsusi Əlavə Şərtlərdən, həmçinin müraciətin təsdiqi çərçivəsində əldə edə bilərsiniz

**Hər hansı bir sualınız olduğu təqdirdə tez-tez verilən suallarla (FAQ)** əvvəlcədən tanış olmağınızı xahiş edirik. Sözügedən materiallarda suallarınıza aydınlıq gətirilmədiyi təqdirdə, Xarici İşlər üzrə Federal İdarənin əməkdaşları Sizə dəstək verməyə hazırdırlar və zəruri hallarda Sizi Federal Xarici İşlər Nazirliyindəki həmkarlarına yönləndirəcəklər. Bu məqsədlə oepr@bfaa.bund.de elektron poçt ünvanı vasitəsilə əlaqə saxlayın.

http://oepr.diplo.de internet saytdan istifadə zamanı **texniki çətinliklər yarandıqda** xanım Julia Meltke (E-Mail: f-pf-1-1-8@bfaa.bund.de) və xanım Janett Stefaniak (E-Mail: f-pf-1-1-5@bfaa.bund.de) əlaqə saxlamağınız xahiş olunur.